# SƏNGİMƏYƏN MARAQ

## 18 sentyabr Milli Musiqi günüdür!

**Məlum olduğu kimi Azərbaycan Respublikası Prezidentinin "Üzeyir Musiqi Günün keçirilməsi haqqında" 18 sentyabr 1995-ci il tarixli, 385 nömrli Fərmanına uyğun olaraq hər il rayon və şəhərlərimizdə müxtəlif layihələr gerçəkləşdirilir, rəngarəng tədbirlər keçirilirlər. Cari ildə bu münasibətlə görüləcək işlərin coğrafiyası daha genişdir.**




Belə ki, 17-25 sentyabr tarixlərdə Bakıda Beynəlxalq Musiqi Həftəsi keçirilmişdir.

Tədbir çərçivəsində dünyaşöhrətli dirijorlar Enrike Batiz (Meksika) və Maksim Vengerovun (Rusiya) konsertləri olmuş, görkəmli musiqiçilərin yubiley gecələri, sərgilər təşkil edilmiş, dahi bəstəkar Ü.Hacıbəylinin "Koroğlu" operası Beynəlxalq layihə əsasında göstərilmişdir...

"Bəstəkar və zaman" kitabının təqdimatı da böyük Üzeyirə həsr olunmuş çoxsaylı tədbirlər silsiləsindəndir.

Vətən və xalq qarşısında xüsusi tarixi xidmətləri olmuş Üzeyir bəyə, onun yaradıcılığına, şəxsiyyətinə maraq illər keçsə də, yaşının üstünə yaş gəlsə də səngimir.

Ü.Hacıbəylinin həyat və yaradıcılığının ayrı-ayrı cəhətləri ətraflı öyrənilmişdir. Onun musiqi yaradıcılığından, opera və musiqili komediyalarından geniş bəhs edilmiş, publisistikasından, jurnalistik fəaliyyətindən, musiqi mədəniyyətinin inkişafı sahəsində etdiyi fövqəladə əhəmiyyətli işlərdən danışılmış, bəstəkarın Azərbaycanın dövri mətbuatındakı rolu və mövqeyi müəyyənləşdirilmiş, pedaqoji görüşləri tədqiq edilmiş, müəllimlik fəaliyyəti ilə bağlı bir sıra məsələlərə əhəmiyyətli dərəcədə toxunulmuşdur.

Görkəmli bəstəkar, müasir Azərbaycan professional musiqisinin banisi, dirijor, istedadlı pedaqoq, publisist, tarixçi, dramaturq Ü.Hacıbəyli haqqında buraxılan "Bəstəkar və zaman" kitabı da bu mənada diqqət çəkir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bakı Musiqi Akademiyasının birgə hazırlayıb nəşr etdirdiyi ("Adiloğlu" nəşriyyatı) bu kitab Ü.Hacıbəyli irsinin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Kitabın redaktoru Azərbaycanın xalq artisti, professor

F.Bədəlbəyli, elmi redaktoru fəlsəfə elmləri doktoru, professor, əməkdar incəsənət xadimi Gülnaz Abdullazadədir.

Kitab iki dildə - Azərbaycan və rus dillərində nəşr edilmişdir. Beş bölmədən ibarətdir: Üzeyirşünaslıq, bəstəkar yaradıcılığı, musiqi tarixi, ifaçılıq problemləri və pedaqogika, musiqi folkloru və alətşünaslıq.

Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor G.Abdullazadə və sənətşünaslıq namizədi İ.Abbasovanın "Leyli və Məcnun" operası haqqında bəzi düşüncələri" məqaləsi Ü.Hacıbəyli mövzusunun illər keçdikcə tükənməz və ölməz olması faktını bir daha təsdiqləyir. Bu məqalədə bəstəkarın humanizm və insanpərvərlik kimi gözəl keyfiyyətləri sadalanır. Məqalədə həmçinin, Ü.Hacıbəylinin düşüncə və arzuları, opera yazmaq həvəsinə düşməsi, bunun üçün Azərbaycan xalq musiqisini dərindən öyrənməsi və əsərlərində tədqiq etməsi, bu yoldakı uğurları ön plana çəkilir.

Sənətşünaslıq doktoru, professor R.Zöhrabovun "Ü.Hacıbəyov yaradıcılığında muğamlardan istifadə məsələləri" məqaləsi də çox maraqlıdır. R.Zöhrabov bu məqaləsində muğamlardan öz yaradıcılığında istifadə edən ilk bəstəkarın məhz Ü.Hacıbəyli olduğunu bir daha vurğulayaraq yazır: "Üzeyir bəy bütün yaradıcılığı boyu, istər bəstələdiyi musiqi əsərlərində, istərsə də məqalə və çıxışlarında şifahi-professional musiqinin mərkəz janrı olan muğamlara xüsusi yer vermişdir".

Müəllif göstərir ki, Üzeyir bəy Azərbaycanda muğam musiqisini intensiv şəkildə işlətməklə muğam sənətini yüksək səviyyəyə qaldıracağına çox inanırdı. Məqalədə R.Zöhrabov Ü.Hacıbəylinin "Leyli və Məcnun"da işlətdiyi muğam parçalarından, dəstgahların tərkib hissələri olan təsnif və rənglərdən böyük ustalıqla istifadə etməsindən də danışır.

Sənətşünaslıq namizədi, professor Z.Qafarovanın "Azərbaycan opera sənətində Ü.Hacıbəyovun "Koroğlu" operasının ənənələri" məqaləsi də xüsusi maraq doğurur. Müəllif göstərir ki, Ü.Hacıbəylinin ölməz "Koroğlu" operası bizim klassikamızdır və onun daxili imkanlarının ilk növbədə Azərbaycan bəstəkarları tərəfindən araşdırılıb inkişaf etdirilməsi təbii və qanunauyğundur. Operanın tamaşaya qoyulmasından 70 ildən artıq vaxt keçdiyini bildirən müəllif, digər ölkələrdə Ü.Hacıbəylinin opera ənənələrinin yaradıcılıqla öyrənilməsinin "Koroğlu"dan sonra başlandığını qeyd edir. Zemfira xanım bu məqaləsində Q.Qarayev və Ü.Hacıbəylinin birgə yazdığı "Vətən" operasının, C.Cahangirovun "Azad", Ş.Axundovanın "Gəlin qayası", R.Mustafayevin "Vaqif" operalarının "Koroğlu" ənənələrinin yaradıcı şəkildə inkişaf etdirilməsinə yaxşı bir örnək olduğunu göstərərək, sadaladığımız operalarda Ü.Hacıbəylinin "Koroğlu"da vəsiyyət etdiyi estetik prinsip və ənənələrə sədaqətin daha qabarıq və dönməz olduğunu vurğulayır.

BMA-nın elmi işçisi S.Əzizbəyova "О Постановках "Аршин мал алан"а на грузинском языке" məqaləsində tarixi faktlarla Ü.Hacıbəylinin operettasının müxtəlif illərdə, müxtəlif məkanlardakı tamaşalarından bəhs edir. O, haqlı olaraq qeyd edir ki, ilk dəfə 1913-cü il oktyabrın 25-də tamaşaya qoyulan "Arşın mal alan" Azərbaycanın musiqili teatrında böyük hadisəyə səbəb olmuşdur. 45-dən çox ölkədə tamaşaya qoyulan bu operetta Ü.Hacıbəylinin icazəsilə 1916-cı ildə Tiflisdə səhnələşdirilmişdir.

Məqalədə göstərilir ki, bəstəkar Tiflisdə göstərilən ilk tamaşalarda iştirak etməsə də, elə həmin ildə (1916) Bakıda gürcü dilində göstərilən tamaşanın dirijoru olmuşdur.

Kitabın digər bölmələrində Q.Qarayev, M.Quliyev, X.Mirzəzadə, F.Bədəlbəyli və onların Azərbaycan musiqisində rolu haqqında danışılır, qədim musiqi ənənələrindən bəhs edilir, mövsüm və məişət-mərasim şənliklərində istifadə edilən çalğı alətlərimiz haqqında maraqlı məlumatlar verilir.

Kitabın məhz Ü.Hacıbəylinin anadan olmasının 124 illiyi ərəfəsində onun ev-muzeyində təqdim edilməsi, bəstəkara olan sevginin daha bir təsdiqidir.

İnanırıq ki, bu kitab nəinki müsiqişünasların, həmçinin, geniş oxucu kütləsinin də dərin marağına səbəb olacaqdır.

• **Sevinc AQİLQIZI,**
***Üzeyir Hacıbəyovun ev-muzeyinin böyük elmi işçisi***